

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 iyun 2026-cı il №41 (3043) https://mod.gov.az Qiymәti 30 qəpik


## Prezident İlham Əliyevin sosial media hesablarında Milli Qurtuluş Günü münasibətilə paylaşım edilib




Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında 15 İyun - Milli Qurtuluş Günü münasibətilə paylaşım edilib.

AZƏRTAC paylaşımı təqdim edir.

## Birinci vitse-prezident Mehriban Əliyeva Milli Qurtuluş Günü münasibətilə paylaşım edib






Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 15 İyun - Milli Qurtuluş Günü münasibətilə sosial media hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.

## Milli qürurun və suverenliyin rəmzi

***Dövlətin varlığının, müstəqilliyinin və suverenliyinin ən başlıca təminatçısı onun güclü ordusudur. Tarix boyu böyük sınaqlardan keçən Azərbaycan xalqı üçün 26 iyun təqvimi milli qürurumuzun, sarsılmaz iradəmizin və hərbi ənənələrimizin təntənəsidir. Bu gün Azərbaycan Ordusu regionun ən güclü, ən müasir ordusu olmaqla bərabər, həm də xalqımızın azadlıq və yenilməzlik rəmzinə çevrilib. Bu rəmzin təməli isə hələ bir əsr əvvəl, Şərqin ilk demokratik respublikasının qurulduğu çətin və keşməkeşli günlərdə qoyulub.***

1918-ci il mayın 28-də müstəqilliyini bəyan etmiş gənc Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında duran ən mühüm vəzifə ölkəni daxili və xarici təhdidlərdən qorumaq qabiliyyətinə malik nizami ordunun qurulması idi. Həmin dövrdə Bakıda və ətraf rayonlarda azərbaycanlılara qarşı törədilən kütləvi qırğınlar milli hərbi hissələrin formalaşdırılmasını təxirəsalınmaz bir zərurətə çevirmişdi. Belə bir tarixi məqamda, 1918-ci il iyunun 26-da Nazirlər Şurasının qərarı ilə Gəncədə ilk nizami hərbi hissə - Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Bu mühüm addım müasir Azərbaycan Ordusunun bünövrəsi oldu. Az sonra Hərbi Nazirlik təsis edildi, tam artilleriya generalı Səməd bəy Mehmandarov və general-leytenant Əlağa Şıx-



linski kimi peşəkar hərbçilərin rəhbərliyi ilə qısa müddətdə qüdrətli hərbi qüvvə formalaşdı. Qafqaz İslam Ordusu ilə çiyin-çiyinə vuruşan gənc ordumuz sentyabrın 15-də Bakını işğalçılardan azad edərək dövlətin paytaxtı statusunu özünə qaytardı.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Respublikası müdafiə nazirinin 15 İyun - Milli Qurtuluş Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar, dövlət qulluqçuları və mülki işçilər!

Sizi 15 İyun - Milli Qurtuluş Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, ölkəmizin müdafiə qüdrətinin daha da artırılması naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Azərbaycan rəhbərliyinə yenidən qayıdan Ümummilli Lider Heydər Əliyev respublikamızın müstəqilliyinə, suverenliyinə qarşı yaranan təhlükələrin aradan qaldırılmasında müstəsna xidmətlər göstərərək zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı və doğma Vətənə tükənməz sevgisi ilə ölkəmizi ictimai-siyasi böhrandan, xaosdan xilas etmişdir.

Azərbaycanın inkişaf strategiyasının banisi, xalqımızın xilaskarı Ulu Öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində respublikamızın dövlət müstəqilliyi əbədi, sarsılmaz, dönməz olmuşdur. Bu gün dünyada söz sahibi olan müasir, müstəqil Azərbaycan dövlətinin inkişaf tarixi qürur mənbəyimizdir.

Ulu Öndərin dövlət quruculuğu və iqtisadi inkişaf strategiyası Möhtərəm Prezident cənab İlham Əliyevin sayəsində uğurla davam etdirilərək xalqımıza Azərbaycanın dövlətçilik tarixində Böyük Zəfərin təntənəsini yaşatdı.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, hörmətli Mehriban xanım Əliyeva Vətən uğrunda gedən döyüş əməliyyatları zamanı yaralanmış hərbi qulluqçulara, o cümlədən şəhid ailələrinə və müharibə veteranlarına hər zaman xüsusi diqqət və qayğı göstərmişdir.

Ali Baş Komandanın apardığı müdrik və uzaqgörən siyasəti, yüksək diplomatik bacarığı ilə qətiyyətli addımları, eyni zamanda, ordumuzun peşəkarlığı, yüksək döyüş əzmi və mənəvi-psixoloji hazırlığı sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur.

Ötən il Bakı şəhərində keçirilən 8 Noyabr - Zəfər Gününün beşinci ildönümünə həsr olunmuş təntənəli hərbi parad Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə gündən-günə qüdrətlənən Azərbaycan Ordusunun yenilməzliyinin bir daha göstəricisidir.

Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin tarixi Sərəncamı işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı yenidənqurma, bərpa və abadlıq işlərinin aparılmasına böyük töhfədir.

Bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə, Böyük Qayıdışa layiqli töhfələr verməsi Vətənə sədaqət nümunəsidir.

Əminəm ki, Azərbaycan Ordusunun şəxsi heyəti xalqımızın Ümummilli Liderinin ideyalarına sədaqətini əməllərində, xidməti vəzifələrində nümayiş etdirməklə Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlığını daha da artıraraq Ali Baş Komandanın əmr və tapşırıqlarını ən yüksək səviyyədə yerinə yetirəcəkdir.

15 İyun - Milli Qurtuluş Günü münasibətilə ordumuzun şəxsi heyətini bir daha ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, şərəfli xidmətinizdə uğurlar arzulayıram.

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının müdafiə naziri**

## Azərbaycan müdafiə naziri Pakistan tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Quru Qoşunlarının Komandanı - Müdafiə Qüvvələrinin rəisi Feldmarşal Seyid Asim Munirə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Pakistan Hərbi Hava Qüvvələrinə məxsus təlim təyyarəsinin ölkənin şimal-qərbində yerləşən Xayber-Paxtunxva əyalətində qəzaya uğraması nəticəsində iki pilotun həyatını itirməsi barədə xəbər məni dərindən kədərləndirdi.

Baş vermiş aviaqəza nəticəsində həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin."

## Türkiyə Prezidenti Azərbaycanı Milli Qurtuluş Günü münasibətilə təbrik edib




Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanı 15 İyun - Milli Qurtuluş Günü münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, Türkiyənin dövlət başçısı bununla bağlı paylaşım edib.

"Azərbaycanı Milli Qurtuluş Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm. "Bir millət, iki dövlət" kəlamının ruhunda bizi birləşdirən ürək birliyi ilə bağlı olduğumuz azərbaycanlı bacı və qardaşlarımıza Türkiyədən salam və sevgilərimi çatdırıram", - deyə dövlətlərin adlarının ilk hərflərindən ibarət TRAZ abreviaturası ilə müşayiət olunan paylaşımda bildirilib.

# Azərbaycan Ordusunda Milli Qurtuluş Günü münasibətilə silsilə tədbirlər keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, Azərbaycan Ordusunda 15 İyun - Milli Qurtuluş Günü münasibətilə silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirlər çərçivəsində hərbi qulluqçular ölkə ərazisindəki Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət edib, xalqımızın Ümummilli Liderinin şərəfli həyat yolu və fəaliyyətindən bəhs edən filmləri izləyiblər. Həmçinin onlarla tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş maarifləndirici söhbətlər aparılıb, şəxsi heyət üçün müxtəlif mədəni-kütləvi tədbirlər təşkil olunub.

Çıxışlarda bildirilib ki, Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanın inkişafında yeni mərhələnin başlanğıcı olub. Qeyd edilib ki, Ulu Öndərin dövlətçilik ideyaları və ölkəmizin tərəqqisinə yönəlmiş siyasi kursu hazırda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirlər zamanı Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində əldə olunan tarixi Qələbənin, eləcə də Qarabağ iqtisadi rayonunda həyata keçirilmiş antiterror əməliyyatından sonra ölkəmizin ərazi bütövlüyünün tam bərpa edilməsinin tarixi əhəmiyyətindən danışılıb.

Sonra xidmətdə fərqlənən hərbi qulluqçular fəxri fərmanlarla təltif ediliblər.

Tədbirlərin bədii hissəsində şəxsi heyətə Milli Qurtuluş Gününü və vətənpərvərliyi tərənnüm edən rəngarəng konsert proqramları təqdim olunub.

* * *

Azərbaycan Hərb Tarixi Muzeyində 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirildi. Tədbirdə muzeyin kollektivi, zabitlər, kursantlar və qonaqlar iştirak etdilər.

Aparıcı Milli Qurtuluş Günü haqqında qısa məlumat verdi. Tarixi müstəqilliyin ilk illərində ölkədə siyasi hakimiyyətin yarıtmaz fəaliyyəti nəticəsində baş verən hadisələr dövlətimizin mövcudluğuna yönəlmiş ən böyük təhlükə olduğunu və xalqı düşdüyü böhrandan xilas edəcək liderə ehtiyac yarandığını qeyd etdi. O zaman Naxçıvan Ali Məclisin sədri olan Heydər Əliyevin ölkəni düşdüyü böhrandan çıxaracaq yeganə lider olduğunu xalq da bilirdi. Qəti təkid edərək onu Bakıya, siyasi hakimiyyətə dəvət etdi.



Tədbirdə çıxış edən Azərbaycan Hərb Tarixi Muzeyin rəis müavini ehtiyatda olan polkovnik-leytenant Tələt Qarayev bildirdi ki, sovet dövründə uzun illər Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev respublikamızın iqtisadi, siyasi, sosial tərəqqisi üçün böyük işlər görüb. "Müstəqilliyimizin ilk illərində yaranmış ağır siyasi böhran dövlətçiliyimizi sual altına qoyub. Azərbaycanda hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. 1993-cü il iyunun 9-da Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı. Xalqımızı tərəqqiyə aparan yol bilavasitə həmin gündən başladı. İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi.

15 iyun 1993-cü ildə keçirilmiş Azərbaycan Respublikası Milli Məclisin iclasında etdiyi çıxışında Ulu Öndər Heydər Əliyev demişdi: "Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm". Sonralar ölkənin ali qanunvericilik orqanı xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü əbədiləşdirdi. 15 İyun - Milli Qurtuluş Günü Azərbaycanın Milli Məclisinin qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi.

Müstəqilliyimizin ilk illərində Böyük Öndərin rəhbərliyi və gərgin fəaliyyəti nəticəsində Azərbaycan xalqı tədricən tənəzzül və xaosdan azad olmağı bacardı. Dövlət çevrilişi cəhdlərinə, müxtəlif manеələrə baxmayaraq, Prezident Heydər Əliyev bütün manеələri cəsarət və qətiyyətlə dəf edərək ölkəmizi ağır böhrandan xilas etdi, inkişaf və tərəqqi yoluna çıxardı.

Müasir Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla həyata keçirilir".

Daha sonra Hərbi İdarəetmə İnstitutunun zabitləri Rafiq Verdiyevin "Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı və Azərbaycan Respublikasının qurtuluşu", İlqar Yusifovun isə "Zəfərin qazanılmasında Milli Qurtuluş Gününün tarixi əhəmiyyəti" mövzularında çıxışları oldu. 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş qısametrajlı sənədli film nümayiş edildi.

Sonda tədbir iştirakçıları Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında hərbi vətənpərvərlik mahnılarını dinlədilər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

(Əvvəli 1-ci səhifədə)

# Milli qürurun və suverenliyin rəmzi

Cümhuriyyətin ömrü cəmi 23 ay çəksə də, 26 iyun tarixi xalqımızın yaddaşına silinməz izlərlə həkk olundu.

Azərbaycan 1991-ci ildə müstəqilliyini yenidən bərpa etdikdən sonra Ermənistanın hərbi təcavüzü ilə üz-üzə qaldı. Müstəqilliyin ilk illərində ölkədə vahid komandanlığın olmaması, ordunun daxili siyasi çəkişmələrə alət edilməsi torpaqlarımızın işğalına gətirib çıxardı. Ordunun peşəkar kadrlarla yenidən qurulması, silahlı dəstələrin ləğv edilərək vahid mərkəzləşdirilmiş strukturun formalaşdırılması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Hələ SSRİ dövründə - 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılmasına nail olan Ulu Öndər, gələcək müstəqil Azərbaycan üçün hərbi kadr potensialının təməlini qoymuşdu. Müstəqillik illərində isə məhz onun uzaqgörən siyasəti ilə orduda genişmiqyaslı islahatlara başlanıldı. Ümummilli Liderin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun tarixi Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və həmin vaxtdan bu gün ümumxalq bayramı olaraq qeyd edilir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi dövründə isə ordu quruculuğu keyfiyyətcə tamamilə yeni, müasir mərhələyə qədəm qoydu. İqtisadi imkanların genişlənməsi fonunda hərbi büdcə dəfələrlə artırıldı, ordumuz ən son texnologiyalar, pilotsuz uçuş aparatları, hava hücumundan müdafiə sistemləri və zirehli texnikalarla təchiz olundu. Eyni zamanda, dost ölkələrin orduları ilə birgə keçirilən hərbi təlimlər şəxsi heyətin döyüş ruhunu və peşəkarlığını ən yüksək zirvəyə daşıdı. Bu sistemli hazırlığın məntiqi nəticəsi xalqımızın 30 illik torpaq həsrətinə son qoyan 44 günlük Vətən Müharibəsi oldu. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında hərb tarixinə qızıl hərflərlə yazılacaq bir dastana imza atdı. Dünyanın aparıcı ölkələrinin hərbi mərkəzləri tərəfindən bu gün də öyrənilən unikal Şuşa əməliyyatı və digər parlaq qələbələr torpaqlarımızın azad edilməsi ilə nəticələndi. Bunun ardınca, 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə separatizmin kökü birdəfəlik kəsildi, Azərbaycan öz suverenliyini ölkənin bütün ərazilərində tam bərpa etdi və Xankəndidə, Xocalıda üçrəngli bayrağımız ucaldıldı.



Bu şanlı qələbə tariximizə yalnız hərbi strateji uğur kimi deyil, həm də xalqımızın sarsılmaz iradəsinin, vətənpərvərliyinin və fədakarlığının rəmzi kimi həkk olundu. Şübhəsiz ki, bu möhtəşəm Zəfərin ən uca zirvəsində torpaqlarımızın hər qarışı uğrunda canından keçən, qanı ilə dastan yazan müqəddəs şəhidlərimiz dayanır. Onlar öz canları və qanları bahasına 30 illik həsrətə son qoydu, bizə qalib xalq olmağın qürurunu yaşatdı. 44 günlük Vətən Müharibəsində, ondan sonrakı dövrdə və nəhayət antiterror tədbirlərində bir an belə tərəddüd etmədən şəhadət şərbətini içən hər bir qəhrəmanımız Azərbaycanın müstəqillik və suverenlik tarixinə adını əbədi olaraq qızıl hərflərlə yazdı. Biz bu gün rahat nəfəs ala biliriksə, bunu məhz o mərd, cəsur və Vətənini canından əziz tutan oğullarımıza borcluyuq. Onların əziz xatirəsi və qoyub getdikləri zəngin irs xalqımızın qəlbində əbədi yaşayacaq, gələcək nəsillər üçün hər zaman bir fəxarət və örnək mənbəyi olacaq.

Bu əbədi xatirə qəlblərdə yaşayan bir duyğu olmaqla yanaşı, indi bütün Qarabağda eşidilən Böyük Zəfərin sədasıdır. Otuz ilə yaxın səssizliyə məhkum edilmiş, düşmən işğalında olan müqəddəs torpaqlar indi şəhidlərimizin ruhunu şad edən coşğulu bir oyanış dövrünü yaşayır. Şuşada ucalan azan səsi, Xankəndidə dalğalanan bayrağımızın xışıltısı və azad edilmiş yurdlarımızda keçirilən hərbi paradların əzəmətli addım sədaları məhz o qəhrəmanların bizə əmanət etdikləri ən böyük mirasdır.

Bu gün o Zəfər sədası doğma yurd-yuvalarına geri dönən minlərlə soydaşımızın Böyük Qayıdış sevinci ilə birləşib. İllərdir bu torpaqların həsrətini çəkən, köçkünlük acısı yaşayan insanlarımızın bu gün evlərinə, dədə-baba ocaqlarına qayıdırlar. Ağdamda, Füzulidə, Zəngilanda, Laçında və digər azad olunmuş bölgələrimizdə ucalan yeni binaların, məktəblərin divarlarına bəşər tarixinin ən şanlı qələbəsinin sədaları hopub. Yenidən canlanan kəndlərimizdən gələn uşaq gülüşləri, tarlalardan yüksələn ruzi-bərəkət sədası dövlətimiz və ordumuzun xalqımıza bəxş etdiyi parlaq gələcəyin təzahürüdür.

26 İyun - Silahlı Qüvvələr Gününü bu gün Azərbaycan xalqı tam fərqli bir qürurla, qalib xalq kimi qeyd edir. Artıq qarşıda torpaqları azad etmək missiyası yox, qazanılmış tarixi Zəfəri qorumaq, azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda təhlükəsizliyi sarsılmaz etmək vəzifəsi dayanır. Yeni yaradılan "Komando" hissələri, modernləşdirilmiş hərbi hava və dəniz qüvvələri ilə ordumuz bu gün bölgədə sülhün və sabitliyin ən böyük rəhnidir. Bu gün hər birimiz canlarını Vətən uğrunda fəda etmiş bütün şəhidlərimizi dərin rəhmət və ehtiramla anır, bu yolda sağlamlıqlarını itirən qardaşlarımıza şəfalar diləyir və sərhəddə, səngərdə göz qırpmadan keşiyimizi çəkən Azərbaycan əsgərinə əşq olsun deyirik!

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

# Xalqımızın güvənc yeri - gələcəyin zabitləri







*İyunun 12-də Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 54-cü buraxılışına həsr olunan təntənəli mərasim keçirildi.*

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, universitetin və liseyin rəhbərliyi, müəllim heyəti, kursantlar, təhsil ocağını müxtəlif illərdə bitirmiş məzunlar, valideynlər, ictimaiyyət və media nümayəndələri iştirak etdilər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri qoyuldu, Ulu Öndərin həyatını və siyasi fəaliyyətini əks etdirən muzey ziyarət olundu.

Sonra Hərbi liseyin ərazisindəki C.Naxçıvanskinin büstü önünə gül dəstələri düzüldü.



Tədbirdə C.Naxçıvanski adına Hərbi Liseyin Döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirildi.



Dahi Şəxsiyyət Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Müdafiə Nazirliyinin rəhbərliyi adından əlamətdar gün münasibətilə məzunları təbrik edən MMU-nun rektoru general-mayor Gündüz Əbdülov onlara gələcək xidmətlərində uğurlar arzuladı. General-mayor G.Əbdülov bildirdi ki, bu gün burada sadəcə bir təhsil mərhələsinin başa çatması qeyd olunmur. "Bu gün Azərbaycan Ordusunun gələcəyinə doğru atılan növbəti mühüm addımın şahidi oluruq. Bu gün xalqımız öz gələcəyini yeni nəslə etibar edir. Bundan 55 il əvvəl milli hərbi kadrların hazırlanmasının vacibliyini görən Ulu Öndər Heydər Əliyev böyük uzaqgörənlik nümayiş etdirərək bu təhsil ocağının əsasını qoydu. Sovet birliyinin ən sərt dövründə cəsarətlə qəbul edilən bu qərar müstəqil Azərbaycanın güclü ordusunun formalaşdırılmasına xidmət edən ən mühüm dövlətçilik addımlarından biri oldu. Bu gün həmin uzaqgörən siyasətin nəticələrini görürük. Cəmşid Naxçıvanski adına Hərbi Lisey artıq on minlərlə vətənpərvər gəncin həyat yolunun başlanğıc nöqtəsinə çevrildi. Qürurla deyə bilərik ki, bu lisey yalnız xüsusi təyinatlı ali və orta ixtisas təhsilli müəssisələr üçün namizədlər hazırlayan təhsil müəssisəsi deyil, bu, milli ruhun, hərbi iradənin, dövlətə sədaqətin məktəbidir.

Bu məktəbin adı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qüdrəti və dövlətimizin əzəməti ilə yanaşı çəkilir. Azərbaycan Respublikasının azadlığı, müstəqilliyi və suverenliyi uğrunda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirmələri böyük fədakarlıq göstərib, 200-dən çox məzun Vətən yolunda şəhidlik zirvəsinə ucalıb. Onların qəhrəmanlığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, liseyin məzunları sırasından 10 nəfər Milli Qəhrəman, 19 nəfər isə Vətən Müharibəsi Qəhrəmanı fəxri adına layiq görülüb. Bu göstəricilər liseyin yalnız təhsil müəssisəsi deyil, eyni zamanda, yüksək vətənpərvərlik ruhunun, hərbi peşəkarlığın və liderlik keyfiyyətlərinin formalaşdığı mühüm bir məktəb olduğunu bir daha sübut edir", - deyə Milli Müdafiə Universitetinin rektoru vurğuladı.

Sonra C.Naxçıvanski adına Hərbi Liseyin rəisi, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Anar Mirzəyev çıxış edərək məzunları təbrik etdi: "Bu gün burada sizin qarşınızda çıxış etmək mənim üçün sadəcə bir vəzifə deyil, həm də qürur dolu bir andır. Çünki qarşımda bir neçə il əvvəl liseyin qapısından böyük arzularla daxil olan yeniyetmələr deyil, məqsədi, iradəsi və məsuliyyəti olan gənclər dayanırlar. Bu liseyin yetirmələri ölkəmizin müdafiəsində, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda gedən döyüşlərdə, o cümlədən qazanılan tarixi qələbələrdə böyük xidmətlər göstəriblər. Siz bu müqəddəs təhsil ocağında yalnız bilik əldə etməmisiniz, həm də Vətənə sədaqət, hərbi intizam, vətənpərvərlik və liderlik keyfiyyətləri qazanmışsınız. Siz həyatınızın ən yaddaqalan dövrlərindən biri ilə vidalaşırsınız. Bu doğma divarlar arasında qazandığınız dostluqlar, keçdiyiniz çətinliklər, uğurlarınız, öyrəndiyiniz dərslər ömrünüz boyu sizinlə olacaq.

Hansı vəzifədə olmağınızdan asılı olmayaraq, unutmayın ki, insanın ən böyük rütbəsi onun vicdanıdır, ən böyük gücü isə Vətəninə və xalqına olan sevgisidir. Əminəm ki, siz Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Azərbaycan Ordusunun Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən ordu quruculuğu siyasətinə layiqli töhfələr verəcək, Vətənə və xalqa sədaqətlə xidmət edəcəksiniz. Rəşadətli Azərbaycan Ordusunun qazandığı tarixi nailiyyətlər, qəhrəman şəhidlərimizin əziz xatirəsi və döyüşlərdə yaralananların şücaəti hər biriniz üçün örnək olmalıdır. Siz də gələcək fəaliyyətinizdə bu müqəddəs ənənələri yaşatmalı, dövlətimizin və liseyimizin şərəfli adını daim uca tutmalısınız".







Kursantların valideynlərinə müraciət edən liseyin rəisi qeyd etdi ki, onların böyüməsində, formalaşmasında ən böyük pay sahibi sizsiniz, məhz buna görə də övladlarınızın uğurlarına baxıb, qürur duymaq sizin haqqınızdır.

Daha sonra Hərbi liseyin riyaziyyat müəllimi Aynur Gülməmmədova çıxış edərək bildirdi ki, bu gün hər birimiz üçün çox xüsusi, unudulmaz və qürurverici bir gündür. "İki il əvvəl qarşımızda dayanan gənclər bu gün güclü, iradəli və vətənpərvər şəxsiyyətlər, gələcəyin rəşadətli zabitləri və müdafiəçiləri olaraq dayanırlar. Bu uğurun arxasında təkcə kursantların əməyi dayanmır. Onlara həm elmin, həm də nizam-intizamın sirlərini öyrədən, hər çətinlikdə yollarını işıqlandıran dəyərli zabit və müəllim heyətinin zəhməti danılmazdır. Əziz və dəyərli müəllimlər, bu gün meydanda dayanan hər bir məzun sizin çəkdiyiniz zəhmətin, verdiyiniz dərslərin, göstərdiyiniz fədakarlığın canlı abidəsidir. Əziz valideynlər, gözünüzün nuru olan övladlarınızı böyüdüb bu şərəfli yola əmanət etdiniz. Onların nizamlı duruşu həm də sizin dözümünüzün və fədakarlığınızın bəhrəsidir. Əziz kursantlar, artıq lisey illəriniz arxada qalır. Ulu Öndərimizin və qəhrəman şəhidlərimizin bizə əmanət etdiyi bu müqəddəs torpaqları qorumaq, bayrağımızı hər zaman zirvələrdə dalğalandırmaq sizin ali vəzifənizdir.

**(Ardı 4-cü səhifədə)**

# Heydər Əliyev adına Hərbi Liseyin 26-cı buraxılış mərasimi keçirilib







*Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin 26-cı buraxılışı münasibətilə təntənəli mərasim keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, tədbir liseyin Döyüş bayrağının təntənəli surətdə sıra meydanına gətirilməsi ilə başlayıb.



Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edənlər məzunları bu əlamətdar gün münasibətilə təbrik edərək, onlara gələcək hərbi təhsil və xidmət yollarında uğurlar arzulayıblar.

Qeyd olunub ki, liseyin məzunları ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsində mühüm rol oynayır, Vətənə sədaqət və hərbi peşəkarlıq nümunəsi göstərirlər.

Məzunlar isə qazandıqları bilik və dəyərləri gələcək fəaliyyətlərində layiqincə doğruldacaqlarını bildiriblər.

Sonra məzunlara Hərbi liseyin döş nişanı təqdim edilib, rəmzi yaş kötüyünə məzun simvolu vurulub.

Daha sonra H.Əliyev adına Hərbi Liseyin Döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verilib.

Buraxılış mərasimi şəxsi heyətin təntənəli marşlarla tribuna önündən keçidi ilə başa çatıb.



(Əvvəli 3-cü səhifədə)

# Xalqımızın güvənc yeri - gələcəyin zabitləri

Unutmayın ki, sizin daşıyacağınız ad və rütbə sadəcə bir peşə deyil, bu xalqın sizə olan sonsuz etibarıdır. Siz şanlı tariximizdən güc alan, gələcəyə zəfər ruhu ilə baxan gənclərimizsiniz. Harada olmağınızdan asılı olmayaraq, çiyinlərinizdəki rütbələrdən daha çox, vicdanınızdakı insanlığı və ədaləti uca tutun. Bu şərəfli yolda hər birinizə sarsılmaz iradə, polad kimi möhkəm cansağlığı və tükənməz uğurlar arzulayıram. Məzun gününüz və yeni başlanğıclarınız mübarək olsun!".

Kursantlar adından çıxış edən kurs birincisi kursant Teymur Əliyev dedi ki, biz ömrümüzün ən şərəfli mərhələlərindən birini tamamlayır, doğma təhsil ocağımızla vidalaşırıq. "Ümummilli Liderimiz Heydər Əliyevin böyük çətinliklərə sinə gələrək qurub yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almağımdan və bu mötəbər buraxılış günündə sizin qarşısında çıxış etməkdən sonsuz qürur duyuram. Bu müqəddəs ocaqda keçirdiyimiz illər bizə yalnız hərbi və elmi biliklər qazandırmadı, həm də canımızdan çox sevdiyimiz Vətənə sədaqət, polad kimi möhkəm intizam və yüksək məsuliyyət hissi aşıladı. Burada keçdiyimiz hər bir çətin hazırlıq prosesi, qazandığımız hər bir təcrübə gələcək hərbi xidmətimizin, peşəkar zabitliyimizin ən möhkəm təməli oldu. Siz bizə təkcə dərs öyrətmədiniz, siz bizə çətinliklərə dözməyi, vahid bir komanda kimi hərəkət etməyi və Vətən uğrunda hər an hazır olmağı öyrətdiniz. Liseydə qazandığımız bu bilik



və bacarıqlar gələcək fəaliyyətimizdə bizə yol göstərəcək, bizi peşəkar və ləyaqətli zabitlər kimi yetişdirəcəkdir. Biz dərindən dərk edirik ki, bu gün bu qapıdan çiyinlərimizdə bütöv bir millətin ümidini daşıyaraq çıxırıq. Biz artıq sadəcə kursant deyilik, biz gələcəyin zabitləri, xalqımızın güvənc yeriyik. Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması hər birimizin müqəddəs borcudur. Biz üzərimizə düşən bütün vəzifələri layiqincə yerinə yetirməyə çalışacağıq".

Bizim üçün Vətən hər şeydən uca, hər şeydən üstündür! Azərbaycanın müstəqilliyi uğrunda canından keçən şəhidlərimizin, bu liseyin məzunu olmuş igidlərin şərəfli yolu bizim üçün ən böyük örnəkdir. Onların yolunu davam etdirmək və bizə etibar olunan bu müqəddəs bayrağı hər zaman uca tutmaq üçün əlimizdən gələni edəcəyik. Bu əlamətdar buraxılış günündə bütün məzun yoldaşlarım adından bir daha söz verirəm ki, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları olaraq bizə göstərilən etimadı doğrultmaq üçün bütün gücümüzü səfərbər edəcək, Vətənimizə və xalqımıza sədaqətlə xidmət edəcəyik", - deyə kursant Teymur Əliyev bildirdi.

Buraxılış mərasiminin planına uyğun olaraq məzunlara Hərbi liseyin döş nişanı təqdim edildi, tədrisdə və intizamda fərqlənən kursant tərəfindən rəmzi yaş kötüyünə məzun simvolu vuruldu.

Sonra C.Naxçıvanski adına Hərbi Liseyin Döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verildi.

Sonda hərbi orkestrin müşayiəti ilə kursantlar lisey marşını ifa etdi və təntənəli marşla tribunanın önündən keçdilər.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra kursantların valideynləri və yaxınları ilə görüşüb, onların təəssüratlarını da qələmə aldıq.

Kursant Kənan Abbasovun nənəsi Mərziyə Muradova nəvəsinin Hərbi liseyi uğurla bitirməsindən böyük sevinc hissi duyduğunu bildirdi: "Biləsuvar rayonunun Bəydili kəndindən nəvəmin buraxılış mərasimində iştirak etmək üçün gəlmişəm. Nəvəmin bu illər ərzində həm bilikli, həm də vətənpərvər bir gənc kimi formalaşması bizi qürurlandırır. Liseyin rəhbərliyinə və müəllim heyətinə göstərdikləri diqqət və qayğıya görə təşəkkür edir, bütün məzunlara uğurlar arzulayıram".

Kursant Nicat Zərbəliyevin atası Bəxtiyar Zərbəliyev qeyd etdi ki, buraxılış mərasimi övladı üçün önəmli günlərdən biridir. "Nicatın Hərbi liseyi uğurla başa vurması ailəmiz üçün böyük sevinc və fəxrdir. Burada qazandığı bilik, nizam-intizam və vətənpərvərlik ruhunun gələcək həyatında ona yol göstərəcəyinə inanıram".

Kursant Cavidan Cəbrayılovun əmisi Etibar Cəbrayılov bildirdi ki, qardaşı oğlunun buraxılış sevincini bölüşmək üçün Zəngilan rayonundan gəlib. "Cavidanın təhsil ocağını uğurla bitirməsi ailəmiz üçün böyük qürur mənbəyidir. Özüm də hərbi sahədə xidmət etdiyim üçün bu liseyin gənc



lərin formalaşmasındakı rolunu yaxşı anlayıram. Cavidanın gələcəkdə Vətənə layiqli



xidmət edəcəyinə əminəm. Lisey kollektivinə göstərdikləri zəhmətə görə təşəkkür edirəm və bütün məzunlara uğurlar arzulayıram".

**Qeyd**: Cəmşid Naxçıvanski adına Hərbi Liseydə formalaşan intizam, bilik və mənəvi dəyərlər məzunların hərbi karyerasında möhkəm təməl rolunu oynayacaq. Buraxılış mərasimi həm də liseyin uzun illərdir ölkəmizin müdafiə potensialına verdiyi töhfələrin bariz göstəricisi oldu. Məzunlara ünvanlanan təbriklər və arzular onların üzərinə böyük məsuliyyət qoymaqla yanaşı, yeni uğurlar üçün motivasiya yaradır. Əminik ki, Hərbi liseyin məzunları gələcək xidmətlərində Azərbaycan Ordusunun şərəfli adını uca tutacaq və Vətənə sədaqətlə xidmət edəcəklər. Yolunuz açıq olsun, əziz məzunlar.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

# Səfəvilər - Azərbaycan tarixində ən qüdrətli dövlətlərdən biri

*Azərbaycan dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Tarixi ərazilərdə aparılan arxeoloji qazıntılar göstərir ki, bu ərazidə insanlar minlərlə il əvvəl yaşayıblar. Azıx mağarasında tapılmış "Azıx adamı"nın qalıqları (18 yaşlı qadının alt çənə sümüyü 350-400 min il) Azərbaycanın qədim insan məskəni olduğunu sübut edir. Qobustan qayaüstü rəsmləri isə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olduğunu göstərir, həmçinin burada yaşayan qədim insanların həyat tərzi, ovçuluq və inancları haqqında mühüm məlumatlar verir.*

Azərbaycan ərazisi qədim dövrlərdə mühüm ticarət yollarının üzərində yerləşdiyi üçün burada erkən mədəniyyət və dövlətçilik ənənələri formalaşıb. Tarixi mənbələrə görə, Azərbaycan xalqı təxminən 5 min illik dövlətçilik tarixinə malikdir. İlk tayfa birlikləri və dövlət qurumları e.ə. IV-III minilliklərdə yaranmağa başlayıb. Azərbaycan ərazisində Aratta, Manna, Midiya, Atropatena, Qafqaz Albaniyası kimi qədimi dövlətlər olub. Bu dövlətlər Azərbaycan dövlətçilik tarixinin əsasını qoyub.

Azərbaycan tarixində qüdrətli dövlətlərdən biri də Səfəvilər dövləti olub. Bu dövlətin yaranması Azərbaycan tarixində mühüm hadisə idi. Səfəvilər dövləti - Yaxın və Orta Şərqin regional güc balansını, dini-ideoloji strukturunu və mədəni xəritəsini kökündən dəyişdirən qüdrətli bir Azərbaycan dövlətidir.

Azərbaycanın dövlətçilik tarixində ilk dəfə olaraq bütün şimal və cənub torpaqları məhz bu imperiyanın bayrağı altında vahid idarəetmə sistemində birləşdirilib. Səfəvi sülaləsi öz kökləri etibarilə türk-islam sintezinin ən mükəmməl təzahürüdür.

Səfəvilər dövlətinin siyasi arenaya çıxışı birbaşa XIII əsrin sonlarında Ərdəbildə Şeyx Səfiəddin İshak Ərdəbili tərəfindən əsası qoyulmuş "Səfəviyyə" sufi təriqəti ilə bağlıdır. İlk dövrlərdə sırf dini-fəlsəfi bir təriqət idi. XV əsrdən etibarən sürətlə siyasiləşməyə və hərbiləşməyə başladı.

XV əsrin sonunda Ağqoyunlu dövlətinin daxili çəkişmələr nəticəsində parçalanması Azərbaycan coğrafiyasında dərin siyasi xaos yaratdı. Belə bir şəraitdə atasını və qardaşını bu müharibələrdə itirən, özü isə uzun müddət Lahicanda gizlənən gənc İsmayıl Səfəviyyə müridlərinin müşayiəti ilə tarix səhnəsinə çıxdı.

1499-cu ildə Lahicandan Ərdəbilə, oradan isə Ərzincana doğru hərəkət edən İsmayıl ətrafına qısa müddətdə minlərlə döyüşçü toplamağı bacardı. İlk olaraq atasının intiqamını almaq üçün Şirvanşahlar dövləti üzərinə edən İsmayıl 1500-cü ildə Cabani döyüşündə Şirvanşah Fərrux Yasarın qoşunlarını darmadağın etdi. Bu qələbə Səfəvilərin hərbi qüdrətinin ilk rəsmi nümayişi oldu. Növbəti il, yəni, 1501-ci ildə Şərur döyüşündə Ağqoyunlu Əlvənd Mirzəni məğlub edən gənc sərkərdə Təbrizə daxil oldu. Təbrizdə öz adına xütbə oxutdurub sikkə kəsdirən 14 yaşlı İsmayıl Səfəvilər dövlətinin əsasını qoydu və Təbriz bu dövlətin ilk paytaxtı elan edildi. 1503-cü ildə Almaqulağı döyüşündə Ağqoyunluların sonuncu böyük qüvvəsi məğlub edilərək tamamilə tarix səhnəsindən silindi.

Səfəvilər dövlətinin milli təriximizdəki ən böyük xidmətlərindən biri, Azərbaycan dilinə rəsmi dövlət statusunun verilməsidir. Orta əsrlər Şərqdə fars və ərəb dillərinin qəbul edildiyi bir dövrdə Şah İsmayıl mədəni-siyasi addım atdı. Onun fərmanı ilə Azərbaycan dili imperiyanın rəsmi sənədləşmə, saray, diplomatiya və ordu dilinə çevrildi.

Bu siyasətin rəhbəri olan Şah İsmayıl təkcə hökmdar deyil, həm də dövrünün dahi şairlərindən biri idi. "Xətai" təxəllüsü ilə ana dilində qələmə aldığı lirik qəzəllər, ictimai-fəlsəfi şeirlər, epik səpkili "Dəhnamə" və "Nəsihətnamə" poemaları Azərbaycan ədəbiyyatının qızıl fondunu təşkil edir. Şah İsmayılın bu addımı imperiyanı idarə edən qızılbaşlar ilə sadə xalq arasında qırılmaz bir dil birliyi yaratdı. Xaricdən gələn elçilər Təbriz sarayında məhz Azərbaycan dilində qəbul edilir, rəsmi diplomatik məktublaşmalar bu dildə aparılırdı.

Əks tərəfdə isə Sultan Səlimin sərəncamında dövrün ən müasir hərbi texnologiyası-fitilli tüfənglərlə silahlanmış nizamlı piyada qoşunu və bir-birinə zəncirlənmiş yüzlərlə ağır artilleriya topu var idi. Şah İsmayılın şəxsi şücaətinə, hətta Osmanlı toplarının zəncirini qılıncı ilə kəsməsinə baxmayaraq, odlu silahların yaratdığı dəhşətli atəş gücü qızılbaş süvarilərini darmadağın etdi. Şah İsmayıl bu mənəvi zərbədən sonra ömrünün sonuna qədər heç bir döyüşə girmədi və özünü daha çox daxili idarəçiliyə və mədəniyyətə həsr etdi.

Şah İsmayılın 1524-cü ildə erkən vəfatından sonra taxta cəmi 10 yaşlı oğlu I Təhmasib keçdi. Hökmranlığının ilk on ili qızılbaş tayfa başçılarının daxili, qanlı vətəndaş müharibələri ilə keçdi. Dövlətin bu zəifliyindən istifadə edən Osmanlı Sultanı Süleyman Qanuni və şərqdəki Özbək xanları Səfəvi torpaqlarına ardıcıl hücumlar təşkil etdilər.

Şah I Təhmasib açıq döyüşdə Osmanlı artilleriyasına qalib gəlməyin qeyri-mümkün olduğunu anlayaraq dahi bir hərbi strategiya işləyib hazırladı: "Yandırılmış torpaq" və partizan müharibəsi taktikası. Osmanlı ordusu irəlilədikcə Səfəvi qoşunları geri çəkilir, yolüstü bütün su quyularını doldurur, ərzaq anbarlarını yandırır və əhalini dağlara köçürürdü. Nəticədə ac, susuz və yorğun qalan Osmanlı ordusu qızılbaşların qəfil gecə basqınları ilə sarsıdılır və geri çəkilməyə məcbur edilirdi.

Təhmasibin 52 illik ağıllı idarəçiliyi sayəsində imperiya parçalanmaqdan xilas oldu. Nəhayət, 1555-ci ildə iki dövlət arasında ilk rəsmi sülh müqaviləsi - Amasya sülhü imzalandı. Bu müqavilə ilə Azərbaycan Səfəvilərdə qaldı, İraq isə Osmanlıya verildi və dövlət 30 illik rahat nəfəs almaq imkanı qazandı. Həmçinin, təhlükəsizlik səbəbindən paytaxt Təbrizdən Qəzvin şəhərinə köçürüldü.




XVI əsrin sonlarına doğru Səfəvilər dövləti yenidən dərin siyasi və hərbi böhranla üzləşdi. Ölkə daxilində qızılbaş əyanları özbaşınalıq edirdi. Osmanlılar dəmək olar ki, bütün Azərbaycanı və paytaxt Qəzvinə qədər olan əraziləri işğal etmişdilər. 1587-ci ildə taxta çıxan I Şah Abbas imperiyanı xilas etmək üçün sarsıdıcı islahatlara imza atdı.

Şah Abbas başa düşürdü ki, yalnız qızılbaş süvarilərinə güvənmək dövləti məhvə aparır. O, ingilis macəraçıları Entoni və Robert Şirli qardaşlarının da texniki köməyi ilə ordunu tamamilə yenidən qurdu. Qızılbaşların hərbi inhisarına son qoyularaq dörd yeni qoşun növü yaradıldı:

Qulamlar - birbaşa şaha sadiq xüsusi qvardiya.

Tüfəngçilər - odlu silahla təchiz olunmuş piyada qoşunu.

Topçular - dövlətin ağır artilleriya korpusu. Şah Abbas yüzlərlə yeni qruplar yaradaraq ordunun atəş gücünü Osmanlı səviyyəsinə qaldırdı.

Qorçular - ənənəvi qızılbaş süvariləri, lakin onların da sayı azaldılaraq birbaşa mərkəzi komandanlığa tabe edildilər.



Şah Abbas mərkəzi hakimiyyəti gücləndirmək və dəniz ticarət yollarına yaxın olmaq məqsədilə 1598-ci ildə paytaxtı Qəzvindən İsfahana köçürtdü.

İslahatları başa vurduqdan sonra Şah Abbas dərhal itirilmiş torpaqların azad edilməsinə başladı. O, ilk olaraq şərqdə Özbək xanlarını darmadağın edərək Xorasanı geri qaytardı. Sonra isə Osmanlılar üzərinə yürüş edərək 1603-1607-ci illər müharibəsində Təbriz, Gəncə, Şamaxı, Naxçıvan və İrəvanı, daha sonra isə Bağdadı yenidən Səfəvi bayrağı altına gətirdi. Onun dövründə Səfəvi imperiyası özünün ən geniş coğrafi sərhədlərinə və hərbi qüdrətinin zirvəsinə çatdı.

Səfəvilər imperiyası təkcə hərbi yürüşləri ilə deyil, həm də qlobal ticarət şəbəkəsində oynadığı strateji rolla dünya iqtisadiyyatına yön verirdi. İmperiyanın ən böyük gəlir mənbəyi və beynəlxalq ticarət valyutası - Xəzəryanı bölgələrdə istehsal olunan yüksək keyfiyyətli xam ipək idi.

Şah Abbas ipək ticarətini tamamilə dövlət inhisarına aldı. Avropanın toxuculuq sənayesinin bu xammala olan tələbatını görən Səfəvi sarayı, Osmanlı gömrük rüsumlarından yayınmaq üçün birbaşa dəniz yolları axtarışına çıxdı. İngiltərənin "Ost-Hind" şirkəti və Hollandiya ticarət missiyaları ilə müqavilələr imzalandı. 1622-ci ildə Şah Abbas ingilis donanmasının köməyi ilə Fars körfəzinin girişində yerləşən strateji Hörmüz limanını portuqaliyalıların 100 illik işğalından azad etdi. Burda yeni "Bəndər-Abbas" limanı tikildi və imperiya birbaşa dünya okeanına açılaraq qlobal dəniz ticarətinin mərkəzlərindən birinə çevrildi.

Ölkə daxilində ticarətin inkişafı üçün Şərqlə Qərbi birləşdirən yollar üzərində müdafiə olunan karvansaralar (tarixdə "Şah Abbas karvansaraları" kimi tanınır), körpülər və bazarlar tikildi. Tacirlərin təhlükəsizliyi dövlət tərəfindən zəmanət altına alındı, bu isə Avropa, Hindistan, Rusiya və Çindən gələn böyük karvanların maneəsiz hərəkətini təmin etdi.

Səfəvi dövrü İslam mədəniyyəti və incəsənətinin ən parlaq, ən zəngin dövrlərindən biri idi.

XVI əsrdə Şah İsmayıl və I Təhmasibin himayəsi altında dünya rəssamlıq tarixinə bəxş edilən Təbriz Miniatür Məktəbi özünün zirvəsinə çatdı. Sultan Məhəmməd, Kəmaləddin Behzad kimi dahi rəssamlar tərəfindən illüstrasiya olunmuş Şah Təhmasibin "Şahnamə" nüsxəsi vizual sənətin şah əsəri hesab olunur. Bu əsərdəki miniatürlər incəliyi, rəng harmoniyası və kompozisiya mürəkkəbliyi ilə bu gün də dünyanın ən böyük Metropolitan, Luvr muzeylərini bəzəyir.

Paytaxt İsfahanın Şah Abbas tərəfindən yenidən qurulması şəhərsalma sənətinin möcüzəsi sayılır. Dünyanın ən böyük meydanlarından biri olan "Nəqş-i Cahan" meydanı, onun ətrafında ucalan monumental Ali Qapı sarayı, Şah məscidi, Şeyx Lütfullah məscidi və füsunkar Allahverdi xan körpüsü Səfəvi memarlıq dühasının zirvəsidir.

Səfəvi saray emalatxanalarında toxunan ipək və qızıl saplı xalçalar bütün dünyada lüks simvolu idi. Hazırda Londonun Viktoriya və Albert muzeyində saxlanılan məşhur "Şeyx Səfi xalçası" 1539-cu ildə I Təhmasibin sifarişi ilə toxunmuşdur və dünya toxuculuq sənətinin ən qədim, ən böyük və ən mükəmməl kompozisiyalı xalçası sayılır.

Hər bir böyük dövlət kimi, Səfəvilər də zamanla zəifləmə və tənəzzül dövrünə qədəm qoydu. I Şah Abbasın 1629-cu ildə vəfatından sonra dövlət strukturunda bərpaolunmaz çatlar yarandı.

Daxili çəkişmələrin, iqtisadi problemlərin və xarici hücumların başlanması Səfəvilərin gücünü azaltdı. 1722-ci ildə imperiyanın zəifliyindən istifadə edən əfqan tayfaları paytaxt İsfahanı mühasirəyə alaraq ələ keçirdilər. Şimaldan isə Rusiya və Osmanlı imperiyaları Səfəvi torpaqlarını bölüşdürmək üçün hərəkətə keçdi.

Bu ağır tarixi xaosdan Azərbaycanı və imperiyanı xilas edən şəxs qızılbaşların Əfşar boyundan olan, dahi sərkərdə Nadir xan oldu. O, qısa müddətdə əfqanları ölkədən qovdu, rus və osmanlı qoşunlarını geri çəkilməyə məcbur edərək dövlətin ərazi bütövlüyünü bərpa etdi. Səfəvi şahlarının artıq ölkəni idarə edə bilməyəcəyini görən Nadir xan, 1736-cı ildə Muğan qurultayında özünü şah elan etdi. Bununla da 235 illik Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu və hakimiyyət digər bir Azərbaycan-türk sülaləsinə - Əfşarlara keçdi.

Səfəvilər dövləti süqut etsə də, onun qoyduğu tarixi, siyasi və mədəni mirası müasir Azərbaycan dövlətçiliyinin fundamental bünövrəsini təşkil edir. Səfəvilər Azərbaycan xalqının etnik, dil və mədəni bütövlüyünü təmin etdi. Azərbaycan dilini beynəlxalq arenada imperiya miqyaslı bir dil səviyyəsinə qaldırdı. Bu gün də yaşadığımız coğrafiyanın sərhədlərini və geopolitik kimliyini formalaşdırdı. Səfəvilərin tarixi, sadəcə keçmişin bir səhifəsi deyil, bu günümüzü və gələcəyimizi anlamaq üçün ən mühüm milli strateji yaddaş mənbəyidir.

**Pərvanə İMAMƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

## *Görkəmli şəxsiyyətlər*

# İrəvan xanlarının və Naxçıvan generallarının qəhrəman varisi - Kərim xan İrəvanski

Kərim xan Abbasqulu xan oğlu İrəvanski 1885-ci ilin (bəzi mənbələrə görə 1883-cü ilin) noyabrın 15-də İrəvan şəhərində anadan olub. O, uşaqlıq illərinin çoxunu Naxçıvanda, ana babası general İsmayıl xan Naxçıvanskinin (Kəngərlinin) malikanəsində keçirib. Ana tərəfdən olan çoxlu hərbçi (məşhur "Naxçıvanski"lər nəslinin nümayəndələri) qohumlarının əhatəsində böyüyən Kərimdə də hərb peşəsinə sevgi yaranıb. Babasından hərb sənətinin sirlərini öyrənib və hərbçi olmağı seçib. Kərim xan İrəvanski Sankt-Peterburqdakı Nikolayevski Kadet Korpusunda təhsil almağa gedib. 1907-ci ildə həmin məktəbi bitirib, "kornet" hərbi rütbəsi alıb və Tiflisdə yerləşən 17-ci Nijeqorod Draqun Alayında hərbi xidmətə göndərilib.

1908-ci ildə çarın leyb-qvardiya alayına (Əlahəzrət Mariya Feodorovnanın adına olan Ki-



rasir Alayına) ezamiyyətə göndərilib. 1909-cu ilin mayından etibarən isə alaya rəsmi olaraq təyinat alıb. 1912-ci ilin avqustuna qədər bu alayda xidmət edib.

1912-ci il aprelin 12-də Qatçinisk şəhərində Kirasir Alayının iki zabitinin - Kərim xan İrəvanski və Kirasir Alayının komandanı general-mayor Lev Fyodoroviç Jirar de Sukantonun oğlu donanma leytenantı Lev Lvoviç Jirar de Sukantonun duelə çıxacaqları ilə bağlı xəbər yayılıb. Şəxsi mövzuda mübahisə edən bu iki zabit duelə çıxmaq istəkləri ilə bağlı Kirasir Alayının Zabitləri Cəmiyyətinə və Baltik Donanmasının Dəniz Vasitəçiləri məhkəməsinə müraciət ediblər. Hər iki qurum bu iki şəxs arasında baş verən mübahisənin yalnız duellə həll olunacağı haqda qərar qəbul ediblər.

Tərəflər 25 aprel səhər saatlarında Prioratski parkına toplaşıblar. Burada duelin iştirakçıları, onların sekundantları (K.İrəvanski tərəfdən Kirasir Alayından iki zabit, L.Sukanton tərəfdən iki donanma zabiti), Baltik Donanmasının Dəniz Vasitəçiləri məhkəməsinin təmsilçiləri və Kirasir Alayının həkimləri iştirak ediblər.

Dueldə ilk atəş açan Kərim xan Sukantonu sağ döş qəfəsindən yaralayıb. Bundan sonra ona həkimlər və sekundantlar yaxınlaşaraq ilk tibbi yardım göstəriblər. Daha sonra isə Kirasir Alayının tibb məntəqəsində sarğı işləri görüldükdən sonra onu Varşava vağzalına apararaq oradan da Peterburqa göndəriblər. Yarası olduqca ağır olsa da, həkimlər onu sağalda biliblər. Bundan sonra Lev Lvoviç Jirar de Sukanton uzun müddət orduda xidmət edib və 1934-cü ildə dünyasını dəyişib.

Birinci Dünya müharibəsi başlayanda Kərim xan İrəvanski "poruçik" hərbi rütbəsində olub. 1914-cü ilin avqustunda Qafqaz Yerli Süvari Diviziyasının Kabardin Atlı Alayına göndərilib. Burada o, alayın komandiri polkovnik İllarion Vorontsov-Daşkov tərəfindən alayın müvəqqəti adyutantı təyin edilib. 1914-cü il sentyabrın 3-də verilən 6 nömrəli əmrlə poruçik Kərim xan İrəvanski alayın adyutantı təyin edilib. Kərim xan İrəvanskinin o dövrdə Vəhşi Diviziyanın komandanı olan II Nikolayın kiçik qardaşı Mixail Romanovla yaxın dostluq əlaqələri olub.

1915-ci il yanvarın 9-da Vetlino kəndinin ətrafında gecə vaxtı baş verən döyüşdə göstərdiyi şücaətə görə artıq ştabs-rotmistr rütbəsində olan K.İrəvanski üzərində "İgidliyə görə" sözləri yazılan 4-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə mükafatlandırılıb.

**(Ardı 8-ci səhifədə)**

# Beynəlxalq sularda qazanılan təcrübə



Müasir hərbi təhsildə nəzəri biliklərlə yanaşı, praktiki hazırlığın və beynəlxalq təcrübənin öyrənilməsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutun "Hərbi Dəniz Qüvvələri" fakültəsinin şəxsi heyətinin Bolqarıstanda keçirilən beynəlxalq kursda iştirakı gələcəyin hərbi dənizçi zabitlərinin peşəkar inkişafı baxımından mühüm hadisədir.

26-30 may tarixlərində Bolqarıstan Respublikasının Varna şəhərində təşkil olunan "Gəmi idarəetmə və naviqasiya təhlükəsizliyi" kursu müxtəlif ölkələrdən olan kursant və zabitləri bir araya gətirib. Tədbirdə Azərbaycan nümayəndə heyəti də fəal iştirak edərək, həm nəzəri biliklərini, həm də praktiki bacarıqlarını nümayiş etdirib.

Kurs proqramı iştirakçıların müasir dənizçilik standartları üzrə hazırlığının artırılmasına yönəlib. Təlimlər zamanı kursantlar və zabitlər gəminin hərəkət körpüsü simulyatorlarında müxtəlif tapşırıqlar yerinə yetirərək naviqasiya təhlükəsizliyinin təmin olunması, gəmi idarəçiliyi, taktiki manevrlərin icrası və fövqəladə vəziyyətlərdə düzgün qərar qəbul edilməsi istiqamətində bilik və bacarıqlarını təkmilləşdiriblər. Real şəraitə uyğunlaşdırılmış simulyasiya sistemləri iştirakçılara dənizdə yarana biləcək müxtəlif situasiyaları idarə etmək imkanı yaradıb.

Kurs müddətində Bolqarıstan, Ukrayna və Azərbaycan kursantları arasında təcrübə mübadiləsi aparılıb, dənizçilik sahəsində tətbiq olunan yeni yanaşmalar müzakirə olunub. Kurs iştirakçıları beynəlxalq dənizçilik qaydaları, təhlükəsizlik standartları və gəmi idarəetməsinin müasir üsulları ilə bağlı praktiki məşğələlərə cəlb ediliblər.

Kursun sonunda iştirakçılara kursu müvəffəqiyyətlə başa vurduqlarını təsdiq edən sertifikatlar təqdim olunub.

Kursu müvəffəqiyyətlə başa vurub ölkəmizə qayıdan kursantlarımızın düşüncələrini öyrənmək üçün MMU-nun Heydər Əliyev adına Hərbi İnstitutuna yollandıq.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, 2-ci dərəcəli kapitan Mənsur Orucəliyev bildirdi ki, beynəlxalq kurslar hərbi təhsil sisteminin ayrılmaz tərkib hissəsidir və gələcək zabitlərin peşəkar formalaşmasında mühüm rol oynayır. "Müasir dövrdə hərbi dənizçi zabit yalnız nəzəri biliklərlə kifayətlənməməli, eyni zamanda, beynəlxalq təcrübəyə yiyələnməli, müxtəlif ölkələrin tətbiq etdiyi müasir yanaşmaları öyrənməlidir. Varna şəhərində keçirilən bu kurs kursantlarımız üçün məhz belə bir imkan yaratdı. Onlar müasir simulyasiya sistemlərində çalışaraq gəmi idarəçiliyi, naviqasiya təhlükəsizliyi və taktiki manevrlər sahəsində biliklərini təkmilləşdirdilər".

2-ci dərəcəli kapitan qeyd etdi ki, bu cür proqramlar müxtəlif ölkələrin hərbi təhsil müəssisələri arasında əməkdaşlığın genişlənməsinə də xidmət edir. "Kurs zamanı iştirakçılar təkcə yeni biliklər əldə etmir, həm də xarici həmkarları ilə təcrübə mübadiləsi aparırlar. Bu isə onların peşəkar dünyagörüşünün formalaşmasına, beynəlxalq hərbi əməkdaşlıq mühitini yaxından tanımalarına şərait yaradır. Azərbaycan kursantlarının nümayiş etdirdiyi hazırlıq səviyyəsi bir daha göstərdi ki, ölkəmizdə hərbi təhsil yüksək standartlar əsasında inkişaf edir".

Zabit vurğuladı ki, Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Zəfər gənc hərbçilərin üzərinə daha böyük məsuliyyət qoyur. "Bu günün kursantları qalib ordumuzun gələcək zabitləridir. Onlar yaxşı anlayırlar ki, əldə etdikləri hər bir bilik və bacarıq gələcəkdə Vətənə xidmətə, dövlətimizin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsinə yönələcək. Belə kurslar gənclərin peşəkar hazırlığı ilə yanaşı, onların vətənpərvərlik ruhunun güclənməsinə də mühüm töhfə verir".

Beynəlxalq kursda iştirak edən gənclər arasında "Hərbi Dəniz Qüvvələri" fakültəsinin



kursantları Turan Ramazanov, Milan Kamalov və Sərxan Qasımov da yer alıblar. Onların hər biri hərbi təhsil sahəsində əldə etdikləri uğurlarla seçilən gənclərdir.

Kursant Turan Ramazanov Zaqatala rayonunun Qımır kəndində anadan olub. Hərbi dənizçi olmaq arzusu ilə seçdiyi peşə yolunda inamla irəliləyən Turan artıq ikinci dəfədir ki, Varna şəhərində keçirilən beynəlxalq kursda iştirak edir. Kursant bildirdi ki, Vətən sevgisi hər bir azərbaycanlı gəncin qəlbində yaşayan ən müqəddəs hissdir. "44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər gənclərin vətənpərvərlik ruhunun daha da güclənməsinə səbəb olub. Gələcəkdə qalib Azərbaycan Ordusunun zabiti kimi xidmət etməyi böyük şərəf və məsuliyyət hesab edirəm. Əldə etdiyim bilik və bacarıqları Vətənimizin müdafiəsinə həsr etmək ən böyük amalımdır".

Bakı şəhərində anadan olmuş Milan Kamalov Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarındandır. Kursant qeyd etdi ki, Vətən müharibəsində Azərbaycan Ordusunun nümayiş etdirdiyi birlik, iradə və peşəkarlıq onda böyük heyranlıq yaradıb. O, həmin Qələbənin təkcə hərbi deyil, həm də mənəvi zəfər olduğunu düşünür. Milanın fikrincə, qalib ordunun sıralarında xidmət etmək hər bir gənc üçün qürur mənbəyidir. Buna görə də o, gələcək zabit kimi üzərinə düşən məsuliyyəti dərindən dərk etdiyini vurğulayır. Uşaqlıqdan dənizçi peşəsinə maraq göstərən Milan üçün bu kurs xaricdə qazandığı ilk beynəlxalq təcrübə olub. Onun fikrincə, beynəlxalq kurslar hərbi dənizçilərin



peşəkar hazırlığında əvəzsiz rol oynayır.

Qaradağ rayonunun Ələt qəsəbəsində anadan olan



Sərxan Qasımov ilk hərbi təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə alıb. Daha sonra qardaş ölkənin İstanbul şəhərində yerləşən Dəniz Hərb Okulunda təhsilini davam etdirib, hazırda "Hərbi Dəniz Qüvvələri" fakültəsində təhsil alır. Kursant Sərxan Qasımov vurğulayır ki, vətənpərvərlik insanın həyat yolunu müəyyən edən ən güclü dəyərlərdən biridir. Xaricdə təhsil aldığı müddətdə Azərbaycanın uğurlarını və bayrağını təmsil etməyin məsuliyyətini daha yaxından hiss etdiyini söyləyir. Onun sözlərinə görə, bu gün hansı sahədə olmasından asılı olmayaraq bütün Azərbaycan gəncləri qalib xalqın övladı olmağın qürurunu yaşayırlar. Sərxan gələcəkdə peşəkar dənizçi zabit kimi dövlətinə və xalqına layiqincə xidmət etməyi özünün ən böyük vəzifəsi bilir.

Bu gün Azərbaycan Ordusunda peşəkar və yüksək hazırlıqlı kadrların yetişdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Xarici ölkələrdə təşkil olunan beynəlxalq kurs və təlimlər kursantların dünyagörüşünün genişlənməsinə, müasir hərbi biliklərə yiyələnməsinə və gələcək xidmət fəaliyyətinə daha hazırlıqlı başlamalarına imkan yaradır.

Varna şəhərində keçirilən kurs da Azərbaycan hərbi dənizçilərinin beynəlxalq səviyyədə rəqabət aparmaq qabiliyyətinə malik olduqlarını nümayiş etdirdi. Qazanılan bilik və təcrübə gələcəkdə ölkəmizin dəniz sərhədlərinin etibarlı qorunmasına xidmət edəcək, peşəkar zabitlərin formalaşmasına mühüm töhfə verəcəkdir.

**Kapitan
Günay TAĞIYEVA
"Azərbaycan Ordusu"**

## Azərbaycan hərbçiləri “Qafqaz Qartalı-2026” təlimində iştirak edirlər



Tbilisi yaxınlığındakı Muxrovani hərbi bazasında Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlılarının iştirakı ilə "Qafqaz Qartalı - 2026" birgə taktiki-xüsusi təliminin açılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev və hərbi attaşelik aparatının nümayəndələri, eləcə də digər iştirakçı dövlətlərdən yüksək səviyyəli qonaqlar iştirak ediblər.

Plana uyğun olaraq, əvvəlcə Azərbaycan, Türkiyə və Gürcüstanın müstəqilliyi və suverenliyi uğrunda canından keçmiş hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər üç ölkənin Dövlət himnləri səsləndirilərək dövlət bayraqları qaldırılıb.



Açılış mərasimində çıxış edənlər qonaqları salamlayaraq, bu cür təlimlərin birgə fəaliyyətlərin planlaşdırılması və qarşılıqlı təcrübə mübadiləsi baxımından vacib rol oynadığını vurğulayıb, iştirakçılara uğurlar arzulayıblar.

Qeyd olunub ki, regionda təhlükəsizlik və müdafiə sahəsində üç tərəfdaş ölkə arasında əməkdaşlığın daha da gücləndirilməsini hədəfləyən bu təlim, bölmələrin döyüş hazırlığı imkanlarının genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

## Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının yaradılmasından 32 il ötür

İyunun 16-sı Azərbaycan Ordusunun ideoloji təminatında mühüm yer tutan Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının yaradılmasının ildönümü tamam oldu. 32 illik bir dövrü əhatə edən xidməti fəaliyyət yolu ərzində Hərbi Nəşriyyat hərbi təhsilin inkişafına, şəxsi heyətin maarifləndirilməsinə, hərbi qulluqçularımızın döyüş ruhunun yüksəldilməsinə və ordumuzun informasiya təminatına mühüm töhfələr verib.

1994-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə yaradılan Hərbi Nəşriyyat xidməti fəaliyyətə mürəkkəb və çətin şəraitdə başlayıb. Nəşriyyatın əsası sovet dövründə Xəzər Hərbi Donanmasının orqanı kimi fəaliyyət göstərən və rus dilində nəşr olunan "Xəzərin keşiyində" qəzetinin köhnə mətbəəsinin bazasında qoyulub. Həmin dövrdə mövcud olan çap avadanlıqları istismar müddətini başa vurmuş, texniki imkanlar olduqca məhdud olmuşdur. Kollektiv isə yararsız vəziyyətdə olan kiçik bir otaqda fəaliyyət göstərmişdir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu ordu quruculuğu siyasəti Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının da fəaliyyətinin genişlənməsinə, maddi-texniki bazasının gücləndirilməsinə və qarşıya qoyulan vəzifələrin daha yüksək səviyyədə yerinə yetirilməsinə əlverişli şərait yaratdı.

Ötən illər ərzində Hərbi Nəşriyyatın minlərlə nüsxədə hərbi və xidməti ədəbiyyatının hazırlanaraq qoşunlara çatdırılması təmin edilib. Burada Ümumqoşun nizamnamələri, hərbi təhsil müəssisələri üçün dərslik və dərs vəsaitləri, elmi-metodik materiallar, hərbi nəzəriyyə və təcrübəyə dair kitablar, müxtəlif təlim vəsaitləri və digər zəruri nəşrlər çap olunub. Bu nəşrlər Azərbaycan Ordusunda peşəkar kadr hazırlığının və hərbi təhsilin inkişafında mühüm rol oynayıb.

İnkişafın məntiqi nəticəsi olaraq nəşriyyatın maddi-texniki bazası da davamlı şəkildə yenilənib. 2009-cu ildə yeni istifadəyə verilmiş inzibati binaya köçürülən Hərbi Nəşriyyat ən müasir poliqrafik avadanlıqlarla təchiz olunub. Bu yeniliklər çap məhsullarının keyfiyyətinin yüksəldilməsinə, iş prosesinin operativliyinin artırılmasına və nəşriyyatın imkanlarının daha da genişlənməsinə şərait yaradıb.

Hərbi Nəşriyyatın fəaliyyəti yalnız nəşrlərin hazırlanması ilə yekunlaşmır. Burada çap məhsullarının ərsəyə gəlməsi dəqiq planlaşdırılmış və qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərən kollektiv işin və istehsal prosesinin nəticəsidir. Hərbi Nəşriyyata daxil olan sifarişlər əsasında, ilk növbədə, Planlama və İstehsalın Təşkili bölməsində müvafiq işlər həyata keçirilir, sifarişlər qeydiyyata alınaraq icraya yönləndirilir. Daha sonra materiallar Kompüter bölməsinə təqdim edilir, burada nəşrlərin dizaynı və texniki tərtibatı hazırlanır.





Növbəti mərhələdə materiallar Rəngayırma sahəsinə ötürülür. Burada çap prosesi üçün zəruri texniki hazırlıq işləri görülür, materiallar ofset təbəqələrinə köçürülərək Mərkəzi mətbəəyə göndərilir. Müasir poliqrafik avadanlıqlarla təchiz olunmuş Mərkəzi mətbəədə nəşrlər yüksək keyfiyyətlə çap edildikdən sonra Cild bölməsinə təqdim olunur. Cildləmə işləri başa çatdırıldıqdan sonra hazır məhsullar çap olunmuş məhsullar anbarına təhvil verilir və son mərhələdə sifarişçilərə çatdırılır.

Beləliklə, Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının hər bir bölməsi vahid məqsədə, Azərbaycan Ordusunun şəxsi heyətinin zəruri nəşrlərlə, metodiki və tədris materialları ilə vaxtında və keyfiyyətli təmin olunmasına xidmət edir. Bu sistemli fəaliyyət nəşriyyatın üzərinə düşən vəzifələri yüksək peşəkarlıqla yerinə yetirməsinə imkan yaradır.

Bu gün Hərbi Nəşriyyat Azərbaycan Respublikasının qanunvericiliyinə, müdafiə nazirinin əmr və sərəncamlarına uyğun fəaliyyət göstərərək ordunun şəxsi heyətinin zəruri dərs vəsaitləri, xidməti sənədlər və metodiki materiallarla təmin olunmasında mühüm missiyanı yerinə yetirir. Kollektiv üzərinə düşən vəzifələri yüksək məsuliyyət, peşəkarlıq və vətənpərvərlik hissi ilə icra edir.

Hərbi Nəşriyyatın fəaliyyəti yalnız çap məhsullarının hazırlanması ilə məhdudlaşmır. Onun əsas xidmətlərindən biri də Azərbaycan Ordusunda vətənpərvərlik ruhunun, döyüş əzminin və mənəvi-psixoloji hazırlığın möhkəmləndirilməsinə dəstək verməkdir. Hazırlanan kitablar, vəsaitlər, plakatlar, bukletlər və digər təbliğat materialları şəxsi heyətin maarifləndirilməsində və milli-mənəvi dəyərlərin təbliğində mühüm rol oynayır.

2016-cı ilin Aprel döyüşləri zamanı Hərbi Nəşriyyat üzərinə düşən vəzifələri yüksək operativliklə yerinə yetirdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xalqa müraciəti qısa müddətdə çap edilərək döyüş bölgələrinə çatdırıldı və hərbi qulluqçularımızın ruh yüksəkliyinin daha da artırılmasına xidmət etdi.

Nəşriyyatın tarixində ən şərəfli səhifələrdən biri də 2020-ci ilin 27 sentyabrında torpaqlarımızın azadlığı uğrunda başlayan 44 günlük Vətən müharibəsi ilə bağlıdır. Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə çevrilən bu müqəddəs haqqsavaşının ilk günlərindən etibarən Hərbi Nəşriyyatın şəxsi heyəti ön cəbhənin görünməyən, lakin vacib xidmət sahələrindən birini təşkil edirdi. Döyüş bölgələrində səyyar mətbəələrin qurulması, səhra qəzetlərinin hazırlanması və şəxsi heyətə çatdırılması, təbliğat və təşviqat materiallarının operativ çapı Böyük Qələbəyə aparan mənəvi dəstəyin mühüm hissəsinə çevrildi.

"Sən qalib gələcəksən", "Qələbə uğrunda", "Qalibiyyət döyüşü" səhra qəzetləri, "Biz Zəfər çalacağıq!", "Qarabağ Azərbaycandır!", "Yaşasın Ali Baş Komandan, yaşasın Azərbaycan Ordusu!" şüarları, eləcə də "İrəli" və "Şimşək" döyüş vərəqələri qələbə əzmi ilə döyüşən əsgər və zabitlərimizin mənəvi dayaq mənbələrindən biri oldu. Döyüş bölgələrinə ezam olunan Hərbi Nəşriyyatın hərbi qulluqçuları öz vəzifələrini peşəkarlıqla yerinə yetirdilər.

Onların fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirildi. Vətən müharibəsi dövründə xidməti borclarını layiqincə yerinə yetirən əməkdaşların bir qismi Azərbaycan Respublikası Prezidentinin sərəncamları, müdafiə nazirinin əmrləri ilə müxtəlif medal və təltiflərlə mükafatlandırıldı.

Bu gün Hərbi Nəşriyyat 32 illik fəaliyyəti ərzində formalaşdırdığı zəngin təcrübə, peşəkar kollektivi və müasir texniki imkanları ilə Azərbaycan Ordusunun inkişafına xidmət etməyə davam edir. İnanırıq ki, Hərbi Nəşriyyatın kollektivi bundan sonra da üzərinə düşən məsuliyyətli missiyanı uğurla davam etdirəcək.









Yaradılmasının 32-ci ildönümü münasibətilə Hərbi Nəşriyyatın şəxsi heyətini səmimi-qəlbdən təbrik edir, hər birinə möhkəm cansağlığı, yeni nailiyyətlər və şərəfli xidməti fəaliyyətlərində uğurlar arzulayırıq.

**"Azərbaycan Ordusu"**

# İrəvan xanlarının və Naxçıvan generallarının qəhrəman varisi - Kərim xan İrəvanski



Kərim xanın atası Abbasqulu xan İrəvanski (mərkəzdə) ailəsi ilə birlikdə. Naxçıvan, 1906-cı il.

(Əvvəli 6-cı səhifədə)

1915-ci il fevralın 17-də Karpat dağlarının ətəyində yerləşən Maydan kəndi (indiki Ukrayna ərazisində) ətrafında baş verən döyüşdə fərqləndiyinə görə "Georgi silahı" ilə təltif olunmaq üçün rəhbərliyə təqdim olunub. Təqdimatda yazılıb: "Ştabs-rotmistr Xan İrəvanski alay adyutantı vəzifəsini yerinə yetirərək, 1915-ci il fevralın 17-də Maydan kəndi yaxınlığında baş tutan gecə döyüşündə, xüsusi əhəmiyyətli tapşırığa göndərilib. Ona mənim komandanlığımda olan Kabardin Süvari Alayı və general Staxoviçin dəstəsinin sağ cinahı ilə əlaqəni bərpa etmək tapşırılmışdı. Atıcı dəstə zənciri qalın meşədə irəlilədikcə qonşu dəstələrlə əlaqəni itirmişdi, bu isə bütün dəstəni təhlükəli vəziyyətə salırdı. Ştabs-rotmistr Xan İrəvanski düşmənin öldürücü atəşi altında, öz həyatını təhlükəyə ataraq ona tapşırılmış işi uğurla yerinə yetirdi. Heç nəyə baxmayaraq o, düşmən mövqelərinə kəşfiyyata gedərək, avstriyalıların səngərlərinə 50 addımlıq məsafəyə qədər yaxınlaşmış, onların yerləşdikləri mövqelər və digər məlumatları çatdırmış və bütün dəstəyə əhəmiyyətli kömək etmişdir".

Lakin Kabardin Süvari Alayının komandirinin təqdimatı Georgiyevski Duma tərəfindən rədd edilib. 1915-ci il avqustun 26-da Cənub-Qərb cəbhəsinin IX ordusunun komandanı general Leçitskinin əmri ilə "1914-cü il dekabrın 1-dən 1915-ci il iyulun 1-nə qədər olan tarixdə düşmənlə döyüşdə fərqləndiyinə görə" Kərim xan İrəvanski 3-cü dərəcəli "Müqəddəs Stanislav" (qılınc və bantla birlikdə), 1917-ci il martın 19-da Cənub-Qərb cəbhəsi ordusunun komandanının əmri ilə 4-cü dərəcəli "Müqəddəs Vladimir" (qılıncla və bantla birlikdə), 1917-ci il martın 25-də 4-cü ordu komandanının əmri ilə düşmənə qarşı döyüşlərdə fərqləndiyinə görə Kabardin Atlı Alayının 4-cü yüzlüyünün komandiri ştabs-rotmistr Kərim xan İrəvanski 2-ci dərəcəli "Müqəddəs Anna" ordeni (qılıncla birlikdə) ilə təltif edilib. 27 iyul 1917-ci ildə Kərim xana "rotmistr" hərbi rütbəsi verilib. 1917-ci il iyulun 27-də Rumıniya kralı I Ferdinand tərəfindən "Rumıniya Ulduzu" ordeni ilə təltif edilib. Həmin ilin 29 sentyabrında Kərim xan İrəvanskini yenidən Kabardin Süvari Alayına hərbi xidmətə göndəriblər.

1917-ci ilin avqustunda Dikaya (Vəhşi) Diviziyanın Petroqrada olan yürüşündə iştirak edib. Ordunun və Hərbi Dəniz Donanmasının Komandanlığının əmri ilə 1917-ci il oktyabrın 8-də rotmistr Kərim xan İrəvanski Ali hərbi mükafatla - "Georgi silahı" ilə təltif olunub. Kabardin Süvari Alayı ilə 1917-ci ilin oktyabrında Şimali Qafqaza gəlib. Həmin ilin noyabrında Kərim xan Kiçik Kabardanın Axlovo (indiki Terek rayonunun Nijniy Kurp kəndi) kəndində yerli əhalini quldur hücumlarından qoruyub.

Kərim xan İrəvanski 1918-ci ilin sonlarında Naxçıvana gəlib. 28 yanvar 1919-cu ildə verilən 364 nömrəli əmrdə olan qeydlərdən məlum olur ki, Kərim xan "polkovnik" rütbəsində olub və onun komandiri olduğu könüllü döyüşçülərin sayı 1000 nəfərdən çoxdur. Bu əmrdə qeyd edilib ki, onun rəhbərlik etdiyi döyüş dəstəsi podpolkovnik Kəlbəli xan Naxçıvanskinin rəislik etdiyi qərargaha tabedir. Hətta onun döyüşçülərinin iki döyüş topunun olduğu da yazılıb. Qeyd olunub ki, Kərim xanın komandirlik etdiyi dəstə erməni daşnaklarla döyüşdə böyük şücaətlər göstərib. Həmçinin Kərim xan İrəvanskinin qardaşları Əli xan, Hüseyn xan, Həsən xan, qardaşı oğlu Allahyar xan Naxçıvanın erməni daşnaklarından müdafiə olunmasında böyük xidmətlər göstərmiş, rəşadətlə vuruşmuşlar.

Şərur dairəsinin komandiri kimi mərkəzə verdiyi məlumatda deyilir: "1918-ci il miladi, 23 dekabr. Şərur nahiyyəsinin baş komandanı Kərim xan tərəfindən verilən telefonun məzmunu: "İrəvanda fransız nümayəndələri oturmuşlar. Müsəlman kəndlərinin adamları bu son zamanda müharibəsiz ermənilərə tərk-silah olaraq təslim olmuşlar. Bunlara ermənilər olmazın cəza və cəfa verməkdədirlər. Müsəlmanların cavan, iş bilən və möhtərəmlərindən tutub edam edirlər".

Azərbaycan Xalq Cümhuriyyətinin 28 fevral 1919-cu il sərəncamı ilə Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu yaradılıb və Kərim xan İrəvanski general-qubernatorun hərbi işlər üzrə köməkçisi təyin edilib. 16 mart 1919-cu il tarixində Azərbaycan hökumətinin digər bir qərarı ilə Zaqatalanın qubernatoru general Əliyar bəy Haşımbəyov general-qubernator, Kərim xan İrəvanski hərbi, Bəhram xan Naxçıvanski isə mülki işlər üzrə general-qubernatorun müavini təyin ediliblər. 31 mart 1919-cu il tarixində Azərbaycan hökumətinin qərarı ilə Kəlbəli xan Naxçıvanski Qarabağ general-qubernatorunun hərbi işlər üzrə müavini təyin edilib. Kərim xan İrəvanski isə vəzifəsindən kənarlaşdırılıb. Daha sonra isə o, qardaşı ilə birlikdə Kabardinə gedib.

1919-cu ilin yay və payızında Cənubi Rusiya Silahlı Qüvvələrinin Kabardin Süvari Diviziyasının 2-ci Kabardin Süvari Alayında "rotmistr" hərbi rütbəsində xidmət edib. Bir müddət müvəqqəti olaraq alaya rəhbərlik edib. 1919-cu ilin avqustun sonlarında Nalçikə vurduğu teleqramda 12 avqust tarixində bolşeviklərin 3-cü Qırmızı Süvari Alayını dağıtmaqları və sağ qalanlarının qaçmaqları barədə, eləcə də 2 pulemyot və bir çox odlu silah və güllələrin ələ keçirilməsi haqqında məlumat verib. 1919-cu il avqustun 30-da Veliko Knyajeski stansiyasından vurduğu teleqramda isə avqustun 24-də Tsaritsın ətrafında piyada bolşeviklərə hücum edib, 600 əsir və 5 pulemyot ələ keçirmələri, çox sayda bolşeviki məhv etmələri barədə məlumat verib.

1919-cu il oktyabrın 9-da Volqaboyunda Tsaritsın cəbhəsində bolşeviklərə qarşı gedən döyüşlərin birində həlak olub. Cəbhə komandanlığının təşkilatçılığı ilə Kərim xanın nəşi Nalçik şəhərinə gətirilərək oradakı Volnıy Aul qəbiristanlığında dəfn olunub.

Kərim xanın atası Abbasqulu xan İrəvan xanlığının əsasını qoyan məşhur Hüseynəli xan Sərdarın varisidir. Abbasqulu xanın atası Möhübəli (Mehbalı) xan Sərdarın nəvəsidir.

Anası Tərlan xanım isə general İsmayıl xan Naxçıvanskinin (Kəngərlinin) qızıdır.

Qardaşı Ağa xan İrəvanski 1904-cü ildə İrəvan Şəhər Dumasına, 1906-cı ildə isə Rusiya İmperiyasının I Dövlət Dumasına üzv seçilib. 1919-cu ildə İrəvan Müsəlman Milli Şurasının sədri olub.

Kərim xan İrəvanski ilk dəfə 19 yanvar 1910-cu ildə Hüseyn xan Naxçıvanskinin həyat yoldaşının əmisi qızı İnna Herbel ilə ailə həyatı qurub. Lakin onların bu nikahdan övladı olmayıb. 1918-ci il yanvarın 11-də isə ikinci dəfə Nalçikdən milliyyətcə balkar əsilzadə ailəsindən olan Şamside Kumukovna Aydabulova ilə ailə həyatı qurub.

**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan boksçuları Serbiyada 13 medal qazanıblar



Serbiyanın Vrbas şəhərində yeniyetmə boksçular arasında keçirilən Millətlər Kuboku başa çatıb.

8 ölkənin qatıldığı beynəlxalq turnirə 13 idmançı ilə yollanan Azərbaycan millisinin hər bir üzvü medal qazanıb.

Vaqif Kazımovun baş məşqçisi olduğu U-17 komandanın heyətində Rüstəm Nəsibov (50 kiloqram), İsmayıl Nəsirzadə (52 kq), Əli Abaslı (60 kq), Vəkil Qurbanov (63 kq), Hidayət Məmmədov (70 kq), Yusif Ağakişiyev (75 kq) və Mehran Rəsulov (+80 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Aydın Şahbazov (46 kq), Nihat Məmmədli (48 kq), Əli Camalzadə (57 kq), Şükar Əliyev (80 kq) gümüş, Həsrət Məmmədov (46 kq) və Elcan Musazadə (54 kq) bürünc medala sahib olublar.

7 qızıl, 4 gümüş və 2 bürünc medal qazanan Azərbaycan millisi komanda hesabında birinci yeri tutub. Vəkil Qurbanov yarışın ən yaxşı xarici boksçusu, Fərhad Rəhmanov ən yaxşı hakimi seçilib.

## Azərbaycan avarçəkəni Portuqaliyada ikinci qızıl medalını qazanıb



Portuqaliyanın Montemor-u-Velyu şəhərində keçirilən kayak və kanoe üzrə Avropa çempionatında Azərbaycan təmsilçisi Boqdan Kurudz növbəti uğura imza atıb.

35-39 yaş kateqoriyasında çıxış edən idmançı birnəfərlik kanoe qayığında 200 metr məsafəyə yarışda bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Xatırladaq ki, bu, Boqdan Kurudzun eyni çempionatda qazandığı ikinci qızıl medaldır. Kanoeçi iki gün əvvəl birnəfərlik kanoe qayığında 500 metr məsafəyə yarışda da Avropa çempionu olub.

## Azərbaycan karateçisi Mərakeşdə qızıl medal qazanıb



Azərbaycan karateçisi İrina Zaretska Mərakeşin paytaxtı Rabat şəhərində keçirilən Karate1 Premyer Liqasında qızıl medal qazanıb.

68 kiloqram çəki dərəcəsində çıxış edən idmançı final görüşünü inamlı qələbə ilə başa vuraraq fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

## NATO hava hücumundan müdafiə sistemini İtaliyadan Türkiyəyə köçürəcək



SAMP/T Avropa hava və raketdən müdafiə sistemi İtaliyadan Türkiyəyə köçürüləcək.

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Qeyd edilib ki, qərar NATO-nun daimi müdafiə planı çərçivəsində qəbul olunub.

Məlumata əsasən, SAMP/T sistemi Alyansın hava hücumundan müdafiə imkanlarının gücləndirilməsi məqsədilə Türkiyə Hərbi Hava Qüvvələrinin Konyadakı 3-cü aviabazasında yerləşdiriləcək.

## ABŞ-də bombardmançı təyyarənin qəzaya uğraması nəticəsində 8 nəfər ölüb



ABŞ Hərbi Hava Qüvvələrinə məxsus "B-52 Stratofortress" strateji bombardmançı təyyarəsi Kaliforniya ştatındakı Edvards Hərbi Hava Bazasından havaya qalxdıqdan qısa müddət sonra qəzaya uğrayıb.

"B-52 Stratofortress" təyyarəsinin qəzaya uğraması nəticəsində ekipajın 8 üzvünün həlak olduğu ehtimal edilir.

Bu barədə CNN telekanalı Edwards Air Force Base hərbi hava bazasına istinadla məlumat yayıb.

Hadisə yerinə dərhal fövqəladə xidmət qüvvələri cəlb olunub. Qəzanın başvermə səbəbləri barədə hələlik məlumat verilməyib.

**AZƏRTAC-ın materialları əsasında**

Polkovnik-leytenant Məmmədov Zaur Məmmədağa oğluna verilmiş MN № 0051855 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Gizir Mehdiyev Ülvi Mirələm oğluna verilmiş SQ № 0028912 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Günay TAĞIYEVA

Lisenziya № 361
Sifariş № 584
Nüsxə 3653